**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXXXIII buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIII выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Arts, XXXXIII edition, Baku, 2023*

**UOT 78.02**

**DOI 10.52094/152412.43.2023.23**

**Aysel Firdovsi qızı Əzizova**
**Azərbaycan Milli Elmlər Akademiyası**
**doktorant**
**E-mail: aysel.h91@mail.ru**

# NANAY JANRININ MUSİQİ-ÜSLUB XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Müəyyən tarixi-mədəni, ictimai-siyasi, coğrafi və etnoqrafik amillərin nəticəsində Azərbaycanda lokal etnomədəni mühitlər formalaşmışdır. Mürəkkəb tarixi-siyasi proseslərin nəticəsində bəzi mühitlər bir sıra dəyişikliklərə məruz qalaraq öz fəaliyyətini dayandırmışdır. Bu mühitlərdən biri də Ağbaba etnomədəni mühitidir. Təqdim olunan məqalənin tədqiqat obyektini Ağbaba musiqi folklorunun ən səciyyəvi janrlarından biri olan nanay örnəkləri təşkil edir. Aparılmış təhlil nəticəsində müəllif belə qənaətə gəlir ki, ənənəvi musiqinin bu janrının musiqi dili arxaik xüsusiyyətləri ilə seçilir.

**Açar sözlər:** Ağbaba, nanay, semantika, arxetip, mifologiya, sintaqma

Türksoylu xalqların ənənəvi mədəniyyətində türk mifologiyası,inanc sistemi, arxaik mədəniyyəti ilə qırılmaz tellərlə bağlı olan müəyyən arxetiplər mövcuddur. Bu örnəklər cəmiyyətin yaşadığı sosial, iqtisadi və siyasi faktorlara bağlı olaraq müəyyən dəyişikliklərə məruz qalmışdır. Bəzi nümunələr isə tamamilə unudulmuşdur. Türk xalqlarının arxaik mədəniyyətinin səciyyəvi tərkib hissələrindən birini Ana arxetipi təşkil edir. Məlumdur ki, Ana arxetipinin bütün özəllikləri analıq hissi, qadının magik gücü, müdrikliyi, ucalığı, övlad dünyaya gətirməsi – yəni yeni həyat bəxş etməsi, övladın qayğısına qalıb böyütməsi, bəsləməsi ilə bağlıdır [2, 3]. Bütün bu təməl xüsusiyyətlər dünyanın yarandığı gündən etibarən demək olar ki, bütün qədim xalqların mifologiyasında ana arxetipi ilə bağlı olan ilahi qüvvələrə inancın formalaşmasına gətirib çıxartmışdır.

Tarixən azəri türklərinin yaşadığı geniş coğrafi əraziyə nəzər saldıqda belə qənaətə gələ bilərik ki, bu gün Azərbaycanın coğrafi ərazisinə daxil olmayan qədim türk torpaqlarında da autentik folklorun elə nümunələri mövcud olmuşdur ki, bu nümunələrdə məhz Ana arxetipinin izləri qorunub saxlanılmışdır. Bu etnomədəni mühitlərdən biri də Ağbaba etnomədəni mühitidir.

Ağbaba etnomədəni mühiti autentik folklorun zəngin janr sistemi ilə seçilir. Özündə müxtəlif tarixi-semantik funksiyaları ehtiva edən bu janr sistemi nanay adlandırılan musiqi folklor nümunələri ilə zəngindir.

Tədqiqatçı Tacir Qurbanov "Ağbaba aşıq mühiti" monoqrafiyasında nanayların toy mərasimlərinə daxil olmadan öncə məhz qızlar tərəfindən (Novruz ərəfəsində keçirilən nanayoxuma və ya "çağırma", "küfləngetmə" mərasimlərində) oxunduğuna dair dolğun məlumatlar verir [6]. Qeyd edək ki, bu barədə tədqiqatçı Tacir Qurbanov ilə müsahibəmiz zamanı aldığımız məlumat nanayların mənşəyi barədə apardığımız araşdırma üçün son dərəcə əhəmiyyətli oldu.

"Ağbaba bölgəsində "Küfləngetmə" mərasimləri xüsusi maraqla keçirilirdi. Bu mərasimin keçirilməsi əsasən yaz aylarına təsadüf edirdi. Ağbabada "Küfləngetmə" mərasimi zamanı oxunan nəğmələr arasında nanaylar daha çox yer alırdı. Xüsusilə subay qızlar və yeni nişanlanan qızın tərəfindən oxunan nanayların mətni lirikməişət məzmununda idi. Bu mərasimdə daha çox nişanlı qızın yelləncəkdən yellənməsi və digər qızların ondan israrla nişanlısının adını soruşması və onu yelləncəkdən düşənə qədər yaxud nişanlısının adını deyənə qədər yellədərək nanay oxumaları ilə davam edərdi. Küf isə – ağacın budaqlarından kəndirlə asılan yelləncək mənasında deyilirdi." [1] Tacir Qurbanovun bizə verdiyi məlumatlar əsasında küfləngetmə sözünün etimologiyasını dəqiqləşdirməyə çalışdıq. Belə ki, "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə [1]. Qarakilsə, Şərur, Ordubad bölgələrində kuf, Cəbrayıl, Füzuli, Lənkəran, Masallı, Ordubad, Zəngilan bölgələrində isə küf olaraq istifadə olunan sözlərin yelləncək, kuf getməx (Şərur) ifadəsinin isə yellənmək mənasında olduğu bildirilir. Təəssüf ki, lüğətdə bu sözün işlənmə arealına dair verilən məlumatlarda Ağbaba-Çıldır bölgəsinin adı çəkilmir.

[1] Bu məlumat AMEA. Folklor institutunun aparıcı elmi işçisi, Azərbaycan jurnalistlər və aşıqlar birliyinin üzvü, filoloq Tacir Qurbanovla müsahibə zamanı qeydə alınmmışdır.

Bundan əlavə tədqiqatçı İlkin Rüstəmzadənin "Yelləncək oyununun ritual əsasları" adlı məruzəsində də Tacir Qurbanovun bəhs etdiyi mərasim növləri ilə kifayət qədər bənzərlik təşkil edən Yelləncək mərasimləri barədə məlumat verilmiş və tədqiqatçı burada mərasimin sakral mahiyyəti barədə söz açmışdır: "Ağdaş rayonunun Kürqırağı kəndlərində surmançaq, Cəbrayılda usuncaq, Füzulidə uçuncaq, Qubalıda kuf, Zəngilanda kuf, kufgelli, yelləngüp adı ilə tanınan bu oyun Azərbaycanda vaxtilə çox geniş yayılmışdır. Bu gün həmin oyun yalnız yaşlı nəslin hafizəsində qalmış, orada oxunan mahnıların, sözlərin böyük əksəriyyəti unudulmuşdur" [7].

Qeyd etmək lazımdır ki, elmi ədəbiyyatda bu arxetipin təsvirinə müxtəlif yanaşmalar mövcuddur. Azərbaycan etnomusiqişünası Tahirə Kərimova Ana arxetipini gender fəlsəfəsi kontekstində təfsir edir. Tahirə Kərimova özünün «О перспективах гендерного подхода к изучению фольклора» məqaləsində Azərbaycan şifahi xalq yaradıcılığının maddi və qeyri-maddi irsində gender mövzusunun araşdırılmasına dair bəzi məqamlara diqqət yetirir [5]. Tədqiq edilən mövzu çərçivəsində müəllif Lənkəran zonasında və Qərbi Azərbaycanın Vedi rayonuna məxsus Xalisa kəndində informatorlardan aldığı məlumatlara əsasən qadın ayin mahnı və rəqsləri hesab edilən Yelləncək nəğmələri – Küp nəğmələrini və qarışıq tipli kollektiv "Yallı" rəqslərini təhlilə cəlb edir. Gördüyümüz kimi, tədqiqatçı T.Qur-

banovun bəhs etdiyi küfləngetmə mərasimi və etnomusiqişünas T.Kərimovanın tədqiq etdiyi küp nəğmələri arasında müəyyən tarixi-semantik əlaqə mövcuddur.

Bütün bu irəli sürülən fikirlər onu göstərir ki, genetik nöqteyi-nəzərdən Ana arxetipi ilə bağlı olan nanay anlayışı sonrakı tarixi inkişaf mərhələlərində yeni məzmun çalarları əldə edərək polisemantik məzmunu ilə seçilmişdir. Təşəkkül dövrünün ilkin mərhələlərində sakral dünya ilə (ağac və su kultları ilə) bağlı olan nanay janrı növbəti tarixi dövrlərdə məişət-folklor mərasimlərinin tərkib hissəsi kimi təzahür edərək lirik məzmun əldə etmişdir. Bir sözlə, qədim arxetip müəyyən tarixietnoqrafik amillərin nəticəsində transformasiyaya uğramışdır, poetik mətnində yeni mövzular meydana gəlmiş və bəzi hallarda yalnız qadınlar tərəfindən deyil, həm də kişilər tərəfindən ifa olunmağa başlamışdır.

Səciyyəvidir ki, topladığımız musiqi-etnoqrafik nümunələr arasında bu fikri təsdiqləyən çoxsaylı örnəklər mövcuddur. Məsələn əslən Ağbaba-Şörəyel bölgəsindən olan Sultan Abbasovun ifa etdiyi nümunələrin poetik mətnindən bəlli olduğu kimi nanayların vaxtilə yalnız qızlar, qadınlar deyil, həm də oğlanlar tərəfindən ifa olunduğu fikrini sübuta yetirir.

Qısa tarixi icmaldan sonra topladığımız nanayların etnomusiqişünaslıq kontektində təhlilinə keçid alaq. Vurğulamaq istərdik ki, tədqiqata cəlb etdiyimiz nanayları təhlil edərkən K.Dadaşzadənin "Знаковая система дастана" kitabındakı təhlil üsullarından yararlanmışıq.

Etnofor Sultan Abbasovun verdiyi məlumata əsasən, Ağbaba etnomədəni mühitində ifa olunan nanaylar sırasında "Almadan aldım", "Ana yanıram", "Oy lalam səni" nanay nümunələri də mövcuddur. Müsahibə zamanı etnoforun ifa etdiyi nanayların poetik mətni barədə əhəmiyyətli məlumatlar aldıq. Həmin mətnlərin məzmunu, vəzn və qafiyə xüsusiyyətləri bizi belə qənaətə gətirir ki, nanayların poetik mətni nanay, nanayarası və nanayın təkrarı kimi üç hissədən ibarət formada oxunurdu. Nanayarasının quruluşu isə mütləq şəkildə bayatı poetik formasına əsaslanırdı. İlk öncə "Oy lalam səni" nanayının musiqi mətnini təqdim edirik: Nümunə 1.




Aşağıdakı cədvəldə təhlilə cəlb etdiyimiz nanayın musiqi intonasiya quruluşunun özəllikləri əks olunub:

Cədvəl 1.

| SNT h | | | | | | SNT | | | Hissə |
|---|---|---|---|---|---|---|---|---|---|
| a a | $a^1$b | c d | cıd | a a | $a^1$ b | A B | C $C^1$ | A B | AB A |

“Oy lalam səni” nanayının məqam-intonasiya inkişafı f- Rast məqamına əsaslanır. Nanayın ambitusu x5 malikdir və intonasiya inkişafı mayədən onun kvinta pərdəsinə qədər davam edir. Təhlil nəticəsində nanayın arxetipi, məna daşıyıcısı funksiyasını yerinə yetirən seqmenti müəyyən edərək bu hissənin musiqi dilinin ünsürlərini nəzərdən keçiririk: Nümunə 2.



Cədvəl 2.

| Musiqi dilinin ünsürü | Səciyyəsi |
|---|---|
| Səs sırası (12-ton sistem üzrə) | +7 +4 +2 0 -1 |
| Melodik xəttin əsas konturları | B1=3 B2=3 A1=2 C B3=3 A2=2 |
| Melodik xəttin kənar səsləri |  |
| Metr-ritmik sxem | +7 - 1 |

Ağbaba musiqi folklorunun maraqlı nümunələrindən biri də "Almadan aldım" nanayıdır. Nümunə 2.

**Almadan aldım**

Nota köçürən: Aysel Əzizova




Göründüyü kimi, təhlil etdiyimiz nanayın nanayarası hissəsində səslənən bayatının hər misrasının sonunda (sonuncu misra istisna olmaqla) gülüm poetik əlavəsi oxunur.

"Almadan aldım" adlanan nanayın intonasiya quruluşu aşağıda təqdim etdiyimiz cədvəldə öz əksini tapmışdır. Cədvəl 3.

| SNT h | | | | | | | | SNT | | | | Hissə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| a<br>a | $a^1$<br>b | $a^v$<br>$a^v$ | $a^1$<br>$b^1$ | $a^v$<br>$a^v$ | $a^v b^1$ | $a^v$<br>a | $a^1$<br>b | A<br>B | $A^v B^1$ | $A^v$<br>$B^1$ | $A^v$<br>B | A $A^v$ $A^v$<br>$A^v$ |

Ehtimal etmək olar ki, aşağıdakı seqment nanayın arxetipi funksiyasını yerinə yetirir.

Nümunə 3.



Cədvəl 4.

“Ana yanıram” nanayının musiqi mətnini təqdim edirik: Nümunə 4.

| Musiqi dilinin ünsürü | Səciyyəsi |
|---|---|
| Səs sırası (12-ton sistem üzrə)<br>Melodik xəttin əsas konturları<br>Melodik xəttin kənar səsləri<br>Metr-ritmik sxem | +7 +4 +2 0 -1<br>B1=3 C B2=3 A1=3 B3=4 A2=2 +7<br><br>- 1 |




Apardığımız təhlil nəticəsində nanayın intonasiya quruluşunu aşağıdakı kimi təqdim etmək olar:

Cədvəl 5.

| SNT h | | | | | | | | | | SNT | hissə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| a a | a b | $a^v a^v$ | $a^v b_v$ | $a^v a_v$ | $a^v b_v$ | $a^v a^v$ | $a^v b^v$ | A a | a b | A B $A_v$ $B_v$ $A_v$ $B_v$ $A_v$ $B^v$ AB | A $A^v$ $A^v$ $A^v$ A |

Göründüyü kimi, təhlil etdiyimiz nanayın nanayarası hissəsində səslənən bayatının hər misrasının sonra yenidən nanayın misraları təkrar olunur.

Nanayın arxetipik xüsusiyyətləri aşağıdakı cədvəldə özünü büruzə verir: Nümunə 5.



Cədvəl 6.

| Musiqi dilinin ünsürü | Səciyyəsi |
|---|---|
| Səs sırası (12-ton sistem üzrə)<br>Melodik xəttin əsas konturları<br>Melodik xəttin kənar səsləri<br>Metr-ritmik sxem | +7 +4 +2 0 -<br>B1=3 C B2=2 A1=2 B2=2 B3=2 C<br><br>+7 - 1 |

Qeyd etmək lazımdır ki, təhlil etdiyimiz nümunələrdən "Almadan aldım" və "Ana yanıram" nanaylarının hər ikisində məqam-intonasiya inkişafı as Rast məqamına əsaslanır. Eyni zamanda nümunələrin intonasiya inkişafı mayənin alt aparıcı tonundan (g) mayənin kvintasına (es) qədər ambitusu əhatə edir.

Topladığımız və nota köçürdüyümüz nanayların təhlilini ümumiləşdirərək, qeyd edə bilərik ki, "Almadan aldım", "Ana yanıram", "Oy lalam səni" nanayları eyni melotipin müxtəlif təzahür formalarıdır. Nümunə 6:



Burada "Oy lalam səni", "Ana yanıram", "Almadan aldım" nanaylarının təhlili zamanı aşkar olunan və melotip kimi qəbul etdiyimiz musiqi mətni öz əksini tapmışdır.

Nanayların metr-ritmik xüsusiyyətlərinin müqayisəli təhlili bizi belə qənaətə gətirir ki, musiqi dilinin ünsürünün təşkilində formulluq mühüm rol oynayır. Nümunə 7.



Eyni melodik tipə əsaslanan bu havaların hər biri təkünsürlü seqment əsasında təşkil olunmuşdur. Təhlil olunan nanayların poetik əsası müxtəlif olsa da məzmun olaraq eyni mahiyyəti daşıyır Burada istər bayatı (nanayarası) istər nanay hissəsində musiqi cümləsinin dəfələrlə təkrarı diqqətimizdən yayınmadı. Təhlil olunan nanaylarda diqqət yetirdiyimiz əsas məsələlərdən biri də nanayların autentik musiqi folklorun qədim nümunələrindən biri kimi məhz təkrarlılıq prinsipinə əsaslanmasıdır. Autentik folklorun erkən nümunələrinə xas əlamətlər yalnız təkrarlıq prinsipində özünü büruzə vermir. Eyni zamanda nanayların əsasında məhz təkünsürlü melodik seqmentlərin dayanmasını, musiqi dilinin metro-ritmik təşkilində formulluq prinsipinə istinad etməsini bu nümunələrin musiqi dilinin səciyyəvi cəhətləri kimi hesab etmək olar. Bu cəhətlər bir daha nanayların autentik folklorun ən qədim nümunələrinə aid olması fikrini təsdiqləyir.

Düşünürük ki, nanaylar ana folklorunun tarixi retrospektivində qadının cəmiyyətdəki rolunun bariz nümunəsi olaraq qarşımıza çıxır və təəssüf ki, unudulmaqda olan qədim musiqi janrlarından biri hesab olunur. Biz nanay musiqi janrının timsalında qadın-ana obrazının xalqın təfəkkür tərzində, dünyagörüşündə

formalaşaraq, eyni zamanda real həyatdan transformasiya olunaraq folklor nümunəsi kimi yeni mahiyyət daşıdığının şahidi oluruq.

Qeydlər:

İnformatorlar haqqında məlumat:

Qurbanov Tacir Şaban oğlu: 20.01.1956. Amasya rayonu, İbiş kəndi. Filologiya üzrə fəlsəfə doktoru. AMEA. Folklor institutu. Aparıcı elmi işçi. Azərbaycan jurnalistlər və aşıqlar birliyinin üzvü.

Abbasov Sultan.24.07.1950. Amasya rayonu.

**Ədəbiyyat siyahısı:**

1. A.A.Axundov, Q.Ş.Kazımov, S.M.Behbudov. Azərbaycan dilinin dialektoloji lüğəti. "Şərq-Qərb" Bakı.2007.
2. Ağasıoğlu F. "Daşbaba.Türkün daş yaddaşı" Bakı.2013.
3. Ağasıoğlu F. Doqquz bitik. İslamöncəsi türk tarixi. V bitik. "Mifologiyada tarix." İstanbul 2019.
4. Kərimova T. «О перспективах гендерного подхода к изучению фольклора». "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XIX Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı 2020. s.3.1
5. Qurbanov T. Ağbaba aşıq mühiti. Bakı. 2014.
6. Rüstəmzadə İ. "Yelləncək oyununun ritual əsasları". "İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, "Elm və təhsil". 2016.
7. Дадашзаде К. "Знаковая система дастана". Баку. Нурлан. 2004.
8. Rosh. E.Cognitive representation of semantic categories.Toward an experimental psycology: General,1975.

**Айсель Фирдовси кызы Азизова**

## Музыкально-стилистические особенности жанра Нанай

**Резюме:** Ряд определенных факторов, таких как историко-культурные, социально-политические, географические и этнографические, способствовал

формированию в Азербайджане локальных этнокультурных сред. В результате сложных исторических и политических процессов некоторые среды претерпели ряд изменений и прекратили свою деятельность. Одной из таковых является этнокультурная среда Агбаба. В данной статье в качестве объекта исследования представлены образцы одного из жанров аутентичного фольклор-нанай, одна из наиболее характерных жанров музыкального фольклора Агбаба. В результате анализа автор приходит к выводу о том, что для музыкального языка этого жанра традиционной музыки характерны черты архаичности.

**Ключевые слова:** Агбаба, нанай, семантика, архетип, мифология, синтагма

**Aysel Firdovsi gizi Azizova**
**Musical and stylistic features of the Nanay genre**

**Summary:** A number of certain factors such as historical-cultural, sociopolitical, geographical and ethnographic factors in Azerbaijan made it possible to form local ethno-cultural environments.Thus as a result of complex historical and political processes, some environments have undergone a number of changes and ceased their activities, one of these environments is the ethno-cultural environment of Aghbaba. The object of study of the presented article is one of the most characteristic genres of Aghbaba's musical folklore, Nanai samples. As a result of the analysis, the author comes to the conclusion that the musical language of this genre of traditional music is characterized by archaic features.
**Key words:** Aghbaba, nanay, semantics, archetype, mythology, syntagma

**Məqalənin redaksiyaya daxil olma tarixi: 27. 10. 2023**